**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**
---------------------------------------------------------
**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
==========================================

*Əlyazması hüququnda*

**Əbdülhəsənov Tural Tofiq oğlu**

# KƏND TƏSƏRRÜFATININ İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

**5312.01- "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim
edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Gəncə - 2016**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilib.

**Elmi rəhbər:** İqtisad elmləri doktoru, professor
**Sadıq Vəli oğlu Salahov**

**Rəsmi opponentlər:** Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor
**Arif Şəkərəli oğlu Şəkərəliyev**

İqtisad üzrə fəlsəfə doktoru,
**Hürü Siyasət qızı Şamilova**

**Aparıcı təşkilat:** **Azərbaycan Texniki Universiteti**

Müdafiə 30 aprel 2016-cı il saat $10^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya Şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: AZ 2000, Gəncə şəhəri, A. İsgəndərov küçəsi 64, 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 29 mart 2016-cı ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya**
**şurasının elmi katibi, i.f.d., dosent:** **A.A. Həsənov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikasında makroiqtisadi sabitliyə və makroiqtisadi artıma nail olunması, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, investisiya mühitinin yaxşılaşdırılması, kənd təsərrüfatına investisiyaların qoyulması, regionların resurslarının təsərrüfat dövriyyəsinə cəlb olunması və s. ölkəmizin sosial-iqtisadi inkişafına səbəb olmuşdur. Məlum olduğu kimi, investisiya qoyuluşları hər bir sahənin, eləcə də ölkənin davamlı və dinamik inkişafının zəruri şərtlərindən biridir. Yəni investisiya qoyuluşlarının maliyyə təminatı olmadan heç bir sahədə uzunmüddətli dinamik inkişafı təmin etmək mümkün deyildir. Bu səbəbdən də investisiya mühiti, investisiya cəlbediciliyi, investisiya mühiti və s. kimi məsələlər bütün ölkələrdə normal həyat və fəaliyyətin mühüm amilləri kimi qəbul edilir. Şübhəsiz ki, investisiya mühiti əlverişli olmadıqda investisiya cəlbediciliyi aşağı olur ki, bu da inkişafı əngəlləyən bir göstəricidir.

Ölkə iqtisadiyyatının dayanıqlı və tarazlı inkişafının təmin edilməsinə investisiya qoyuluşlarının həcmi və strukturu birbaşa təsir göstərir. Bu məqsədlə investisiya mühitinin daha da təkmilləşdirilməsi qarşıda duran əsas vəzifələrdəndir. Bu mülkiyyətin formasından asılı olmayaraq bütün investorlar üçün daha sağlam rəqabət mühitinin yaradılması, Azərbaycanın xarici investisiyalar üçün cəlbedici ölkə imicinin daha da yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi, investisiya fəaliyyətinin hüquqi-normativ bazasının təkmilləşdirilməsi, xüsusi mülkiyyətin qorunması və s. tədbirlər həyata keçirilir.

Bir çox müəlliflərin fikrincə, investisiya cəlbediciliyi üç şərtdən: əlverişli investisiya vəziyyətindən, iqtisadi sistemlərdəki investisiya mühitindən, investora əlavə xeyir gətirən müəyyən üstünlüklərin mövcudluğundan asılıdır. Deməli, bunlara əsasən demək olar ki, investisiya cəlbediciliyi investora əlavə mənfəət gətirən, investisiya qoyuluşu riskini azaldan əlverişli investisiya və innovasiya şərtlərinin və üstünlüklərinin məcmusudur.

Kənd təsərrüfatı sahəsi kapital tutumlu sahə olduğuna görə bu mürəkkəb iqtisadi sistemin inkişafı ildən-ilə daha çox investisiya qoyuluşları tələb edir. Məhz kənd təsərrüfatında investisiya fəallığını yüksəltməklə bu sahənin dinamik inkişafını təmin etmək mümkündür. Odur ki, kənd təsərrüfatı sahəsi üçün investisiya fəallığının daim diqqət mərkəzində saxlanılması müasir dövrün ən vacib məsələlərindən biri sayılır.

Bu məsələlərin həlli istiqamətində ən vacib amil dövlətin aqrar siyasəti, aqrar islahatlar və onun əsas prinsiplərinin həyata keçirilməsidir. İslahatın gedişinin sürətləndirilməsi aqrar sahədə istehsalın intensiv inkişa-

fına, mövcud istehsal-iqtisadi potensialdan səmərəli istifadə etməklə əhalinin ərzaq məhsullarına, sənayenin kənd təsərrüfatı xammalına olan tələbatının ödənilməsinə şərait yaratmaqla yanaşı, həm də ölkənin ixrac potensialının artırılmasına xidmət edə bilər.

Odur ki, iqtisadiyyatın ən mühüm sahəsi olan kənd təsərrüfatına xarici və daxili investisiyaların cəlb edilməsi yolları, mənbələri araşdırılmalı, stimullaşdırıcı metodlara üstünlük verilməlidir. Bütün bunlar bazar iqtisadiyyatı şəraitində investisiya siyasətinin, onun kənd təsərrüfatında perspektiv inkişafının təmin edilməsinin elmi-praktiki aspektlərinin işlənilməsini ön plana keçirir. Dissertasiya işi üçün bu mövzunun seçilməsi ilk növbədə bunlarla əlaqədardır.

**Problemin öyrənilmə vəziyyəti.** Son illərdə sahibkarlığın inkişafı, regionların sosial-iqtisadi inkişafı, bu istiqamətdə aparılan struktur dəyişiklikləri kənd təsərrüfatına investisiya qoyuluşlarının təkmilləşdirilməsi sahəsində dərin araşdırmalar aparmağı tələb edir.

Kənd təsərrüfatına investisiya cəlbediciliyi ilə bağlı nəzəri-praktiki məsələlər Azərbaycanın iqtisadçı alimlərindən Z.Ə.Səmədzadənin, S.V.Salahovun, S.Y.Müslümovun, E.R.İbrahimovun, E.A.Quliyevin, R.Ə.Balayevin, İ.H.İbrahimovun, A.T.Əhmədovun, V.T.Novruzovun, V.H.Abbasov, B.X.Ataşovun, M.C.Hüseynovun, G.Ə.Gənciyevin, A.F.Abbasovun, H.A.Xəlilovun və başqalarının əsərlərində öz əksini tapmışdır.

Xarici ölkələrin iqtisadçı alimlərindən C.M.Keyns, Pol A.Samuelson, C.Tobin, V.D.Norbhaus, C.V.Klark, R.Makkonell, S.L.Bryu, S.Brayn, A.Marşal, M.Teysi, P.Kontelyon, C.H.Danninq, V.V.Boçarov, V.Q.Zolotoqorov, M.N.Brodskiy, E.A.Zvonova, M.İ.Knış və başqalarının əsərlərində investisiya qoyuluşları, onun iqtisadiyyatın sahələrinə cəlb edilməsi ilə bağlı problemlər diqqəti cəlb edir.

Lakin qeyd etmək lazımdır ki, yuxarıda adları çəkilən alimlərin əsərlərində aqrar sahədə investisiya qoyuluşlarının iqtisadi səmərəliliyinə, onun yüksəldilməsi yollarına ya sırf nəzəri cəhətdən yanaşılmış, yaxud da onun ayrı-ayrı aspektləri öyrənilmişdir. Həmçinin respublikada kənd təsərrüfatına investisiya qoyuluşlarının iqtisadi səmərəliliyinin yüksəldilməsi problemi birtərəfli tədqiq olunmuş və onun mübahisə doğuran tərəfləri hələ qalmaqdadır. Dissertasiya işi üçün bu mövzunun seçilməsini şərtləndirən səbəblərdən biri də budur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi iqtisadiyyatda yeni meyilləri, dövlətin kənd təsərrüfatında apardığı investisiya siyasətini nəzərə almaqla bazar iqtisadiyyatı şəraitində investisiya qoyuluşunun iqtisadi səmərəliliyinin yüksəldilməsinə və investisiya cəlbediciliyinin artırıl-

masına dair əsaslandırılmış təkliflər hazırlamaqdır. Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuş və yerinə yetirilmişdir:

- bazar iqtisadiyyatı şəraitində aparılan investisiya siyasətinin məqsəd və vəzifələrini müəyyən etmək, aqrar sahədə onun xüsusiyyətlərini göstərmək;
- kənd təsərrüfatında investisiyaların səmərəliliyinin əhəmiyyətini şərh etmək;
- kənd təsərrüfatının mövcud durumu nəzərə alınmaqla onun inkişafının ərazi və sahə xüsusiyyətlərini öyrənmək;
- investisiyaların iqtisadi səmərəliliyinə təsir edən amilləri təhlil etmək və əldə edilən nəticəni qiymətləndirmək;
- bazar iqtisadiyyatının prinsipləri əsasında kənd təsərrüfatında regional investisiya siyasətini əsaslandırmaq;
- kənd təsərrüfatında investisiya layihələrinin maliyyələşdirilməsi mənbələrini müəyyənləşdirmək və iqtisadi səmərəliliyini əsaslandırmaq;
- kənd təsərrüfatının investisiya cəlbediciliyinə təsir edən amilləri qiymətləndirmək;
- kənd təsərrüfatında investisiya cəlbediciliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini kənd təsərrüfatı, predmetini isə iqtisadiyyatın bu, çox mühüm sahəsində gedən sosial-iqtisadi hadisə və proseslər təşkil edir.

**Tədqiqatın nəzəri və metodoji əsasları.** Tədqiqatın nəzəri-metodoloji əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, digər normativ-hüquqi sənədləri, Azərbaycan Respublikası Prezidentinin Fərman və sərəncamları, Milli Məclisi və Nazirlər Kabinetinin qərarları, elmi-tədqiqat institutlarının araşdırmaları, problemin tədqiqi ilə məşğul olan iqtisadçı alimlərin əsərləri təşkil edir.

Dissertasiya işində ümumiləşdirmə, təhlil, müqayisə, dinamika, müşahidə və başqa üsullardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Tədqiqatın aparılmasında Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, İqtisadiyyat, Maliyyə, Kənd Təsərrüfatı Nazirliklərinin, Kommersiya banklarının, kredit təşkilatlarının, aqrar sahəyə xidmət göstərən digər strukturların məlumatları təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- investisiyaların kənd təsərrüfatının inkişafında rolu və onun istehsalın səmərəliliyinin yüksədilməsində əhəmiyyəti əsaslandırılmışdır;

- kənd təsərrüfatına investisiya qoyuluşlarının iqtisadi səmərəliliyinə nəzəri-metodoloji aspektlərdən yanaşılmış, onun iqtisadi səmərəliliyini xarakterizə edən göstəricilər sistemi müəyyənləşdirilmişdir;
- respublikada kənd təsərrüfatının investisiya cəlbediciliyi ilə bağlı mövcud problemlər aşkara çıxarılmış və onların həll olunmasının perspektiv imkanları müəyyən edilmişdir;
- kənd təsərrüfatına investisiya qoyuluşunun dinamikası, sahə və ərazi quruluşu geniş təhlil edilərək qiymətləndirilmiş, ona təsir edən amillər müəyyənləşdirilmişdir;
- kənd təsərrüfatında investisiyaların iqtisadi səmərəliliyinə təsir edən amillər təhlil edilmiş, bu sahədə investisiya mexanizminin təkmilləşdirilməsi istiqamətləri əsaslandırılmışdır;
- respublikada xarici investorların kənd təsərrüfatında investisiya qoya biləcəkləri potensial sahələr və investisiya layihələrinin maliyyələşmə mexanizmi ilə bağlı mühüm təkliflər verilmişdir;
- kənd təsərrüfatına investisiya cəlbediciliyinin perspektiv istiqamətləri əsaslandırılmış və investisiya potensialı olan ixracyönümlü kənd təsərrüfatı məhsulları istehsalının prioritetləri göstərilmişdir;

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Tədqiqat işində elmi cəhətdən əsaslandırılmış müddəalar və yanaşmalar respublika iqtisadiyyatının ən mühüm sahələrindən olan kənd təsərrüfatının inkişafında problemlərin həll edilməsinə, davamlı inkişafın sürətləndirilməsinə və aqrar sahədə investisiya cəlbediciliyinin yüksəldilməsinə yardımçı ola bilər.

İddiaçının nəzəri-metodoloji ümumiləşdirmələrindən və irəli sürdüyü təkliflərdən Azərbaycan dövlətinin kənd təsərrüfatına dair yeni proqramların hazırlanmasında, gələcəkdə bu istiqamətdə aparılacaq elmi tədqiqatlarda, aqrar sahədə təsərrüfatçılıq edən subyektlərdə, eləcə də Kənd Təsərrüfatı və İqtisadiyyat Nazirliklərinin əlaqədar strukturlarının işində istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və nəticələrinin sınaqdan keçirilməsi.** Dissertasiyanın əsas müddəaları və əldə edilən nəticələr elmi konfranslarda (Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun 50 illik yubileyinə həsr olunmuş "Aqrar iqtisadiyaytın aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransda) və seminarlarda müzakirə edilmiş və bəyənilmişdir. Tədqiqatın əsas nəticələri Kürdəmir Regional Aqrar Elm Mərkəzində elmi-praktiki aprobasiyadan keçmişdir. Bununla bağlı həmin təşkilatlar müvafiq olaraq 21 oktyabr 2014-cü il tarixli (57/1 saylı) tətbiqi arayış təqdim edilmişdir.

Tədqiqatın nəticəsi kimi ümumi həcmi 3,8 çap vərəqi olan 6 adda elmi məqalə və tezis dərc edilmişdir.

**İşin həcmi və quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflərdən ibarət olub, işin axırında ədəbiyyat siyahısı verilmişdir. İş kompüter yazısı ilə 157 səhifədən ibarətdir. İşdə 22 cədvəl, 10 şəkil verilmişdir. İstifadə edilmiş ədəbiyyat siyahısında 130 adda mənbə göstərilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsədi, vəzifələri, obyekti, predmeti, elmi yeniliyi və təcrübi əhəmiyyəti, nəticələrinin snaqdan keçirilməsi və istifadə edilməsi verilmişdir.

**"Kənd təsərrüfatinda investisiya qoyuluşunun nəzəri-metodoloji əsasları"** adlı birinci fəslində kənd təsərrüfatında investisiya qoyuluşlarının nəzəri əsasları tədqiq edilmiş, kənd təsərrüfatının inkişafı və istehsalın səmərəliliyinin yüksəldilməsində investisiyaların rolu qiymətləndirilmiş, kənd təsərrüfatına investisiya qoyuluşlarının dünya təcrübəsi verilmişdir.

İnvestisiya-pul kapitalına və real kapitala olan yatırımdır. Bu yatırımlar pul, kredit, qiymətli kağız, həmçinin də intellektual mülkiyyət və s. formada olur. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir ki, investisiya-gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir. Belə vəsait və sərvətlər aşağıdakılardır:

- pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar;
- daşınar və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və başqa maddi sərvətlər);
- müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər;
- bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan ancaq patentləşdirilməmiş, texniki sənədləşdirmə, vərdiş və istehsalat-təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu («non-hau»);

- torpaqdan, sudan və digər ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqdan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn və başqa əmlak hüquqları;

- başqa sərvətlər.

İqtisadi ədəbiyyatda isə qeyd edilir ki, investisiya – bilərəkdən bu günkü istehlak ehtiyaclarından imtina edərək, gələcəkdə davamlı gəlir götürmək məqsədilə istifadə edilməyə yönəldilən uzunmüddətli qoyuluşlardır. Hamı tərəfindən qəbul edilmiş bir fakt qeyd edilməlidir ki, hər hansı sosial-iqtisadi sistemdə biznesin inkişafı və çiçəklənməsi düzgün investisiya siyasətindən asılıdır. Məlumdur ki, investisiya fəaliyyəti riskli fəaliyyətdir, belə ki, vəsaitin xərclənməsi ilə əldə ediləcək gəlir arasında xeyli vaxt keçir ki, bu müddətdə investor ancaq vəsait qoyuluşlarını həyata keçirir. İnvestisiya fəaliyyəti, həm də müəyyən mənada məcburi fəaliyyətdir. Məhz kənd təsərrüfatında investisiya qoyuluşlarını da bu məcburi fəaliyyətə aid etmək olar. Çünki tarixən iqtisadiyyatın ən mühüm sahələrindən biri olan kənd təsərrüfatı əhalinin ərzaq və yeyinti məhsullarına, sənayenin isə xammala olan zəruri tələbatının ödənilməsində əvəzsiz rola malik olmuşdur. Yəni kənd təsərrüfatı ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən sahədir. Ərzaq təhlükəsizliyi dövlətin milli təhlükəsizlik sisteminin bir hissəsi kimi çıxış edir. Son vaxtlar dünya əhalisinin ərzaqla təminatında yaranan çətinliklər, qloballaşma şəraitində ərzaq təhlükəsizliyi məsələlərini aktual mövzuya çevirmiş və dünyada bu sahəyə diqqət artmışdır.

Kənd təsərrüfatına investisiya qoyuluşları nisbətən geniş ərazilərdə həyata keçirildiyinə görə bu sahələrdə təbii, ekoloji və digər amillər nəzərə alınmalıdır. Belə ki, nisbətən geniş ərazilərdə külək və su eroziyasının, torpaqların şoranlaşmaya məruz qalmaları ehtimalı artır. Həmçinin mineral gübrələrin, zəhərli kimyəvi maddələrin ətraf mühiti çirkləndirmək, flora və faunaya ziyan dəyməsi ehtimalı artır. Son nəticədə bu amillər istehsala qoyulan vəsaitin ödənilmə səviyyəsinə bilavasitə təsir göstərir. Odur ki, kənd təsərrüfatına investisiyalar cəlb edilərkən bu xüsusiyyətlər nəzərə alınmalıdır. Dövlətin aqrar sahənin maraqlarına uyğun həyata keçirdiyi investisiya siyasəti həm qeyri-neft sektorunun inkişafına, həm də dünya bazarına alternativ ixracın genişlənməsinə əlverişli şərait yaradır.

Azərbaycan Respublikasının neft gəlirlərindən asılılığının azaldılmasında kənd təsərrüfatının böyük əhəmiyyətə malik olmaqla yanaşı, həm də kənd yerlərində gəlirin artırılması, ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm önəm daşıyır.

Professor S.Salahovun qeyd etdiyi kimi, kənd təsərrüfatı bir sistem olmaq etibarilə, təkcə kənd təsərrüfatı məhsullarının istehsalını və təkrar is-

tehsalını deyil, həm də işçi qüvvəsinin, digər məhsuldar qüvvələrin, ictimai münasibətlərin təkrar istehsalını və həyat tərzinin yaxşılaşdırılmasını təmin edən çoxfunksiyalı kompleks sistemdir. Yəni kəndi təkcə bitkiçilik və heyvandarlıq məhsullarının istehsal edildiyi məkan kimi qiymətləndirmək düzgün deyildir. O, hər şeydən əvvəl həyat tərzi və həyat ukladı kimi dəyərləndirilir. Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatı işçilərinə ünvanladığı müraciətdə də öz əksini tapmışdır: «Kənd təsərrüfatı yalnız iqtisadi fəaliyyət növü deyildir. O, həm həyat tərzi, həm də xalqımızın uzun illərdən bəri yaşatdığı təsərrüfatçılıq ənənəsidir». Bu qeyd edilənlər də kənd təsərrüfatının inkişafı və səmərəliliyin yüksəldilməsində Azərbaycan Respublikası üçün müstəsna əhəmiyyət daşıdığını göstərir. Məhz bunun üçün də bu sahənin investisiya cəlbediciliyinin artırılması zəruridir.

Məlum olduğu kimi, investisiya iqtisadiyyatın sabitləşdirilməsinin və perspektiv inkişafının əsas vasitələrindən biri kimi çıxış etməklə real ümumi kapitalın artırılmasında, iqtisadi səmərəliliyin stimullaşdırılmasında, rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılmasında mühüm rol oynayır. Onun istifadə və yığım səviyyəsinin yüksəldilməsi real istehsalın canlandırılmasının, iqtisadiyyatın yeni sektorlarının yaradılması və inkişafının əsas təməli olmaqla böhranlı hadisələrin aradan qaldırılmasına və ölkənin milli sərvətinin artırılmasına zəmin yaradır.

**Dissertasiya işinin "Kənd təsərrüfatında investisiya fəaliyyətinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi"** adlanan ikinci fəslində kənd təsərrüfatında investisiya fəaliyyətinin mövcud vəziyyəti, investisiya qoyuluşunun sahə və ərazi quruluşu təhlil edilmiş, kənd təsərrüfatının investisiya cəlbediciliyinə təsir edən amillər qiymətləndirilmişdir.

Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının strateji əhəmiyyətli sahəsi olub, əhalinin ərzaq məhsullarına olan ehtiyaclarının ödənilməsində xüsusi rol oynayır. Bu səbəbdən də kənd təsərrüfatının inkişaf etdirilməsi daim mühüm bir vəzifə kimi qarşıda durur. Kənd təsərrüfatının inkişafına müxtəlif amillər - inflyasiyanın səviyyəsi, qiymətlərin dinamikası, texniki məhsulların gətirilməsi, qiymət şərtləri, sosial-demoqrafik mühit və s. təsir göstərir.

Kənd təsərrüfatı iqtisadiyyatın digər sahələri ilə müqayisədə az gəlirli və təbii iqlim şəraitindən asılı olan bir sahədir. Bu baxımdan xarici kapital və daxildə fəaliyyət göstərən kommersiya kapitalı bu sahəyə meyilli olmur və bütün bunlar da kənd təsərrüfatında kapital resurslarına olan tələbatın ödənilməsində problemlər yaradır. Beləliklə, kənd təsərrüfatına kapi-

tal qoyulmamasının qarşısını almaq məqsədilə dövlət kənd təsərrüfatında iqtisadi münasibətləri tənzimləmək məcburiyyətində qalır.

Qeyd etmək lazımdır ki, «Aqrar sahədə islahatların sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 22 mart 1999-cu il tarixli sərəncamına uyğun olaraq, kənd təsərrüfatı əmtəə istehsalçıları torpaq vergisi istisna olmaqla, digər vergi və ödəmələrdən azad edilmişdir. Təbii ki, bu addım aqrar sahədə maliyyə vəziyyətinin yaxşılaşdırılmasına əhəmiyyətli dərəcədə təsir göstərmiş, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına stimul yaratmışdır.

Aqrar islahatların və sahəyə davamlı dövlət dəstəyinin nəticəsində 1995-ci illə müqayisədə 2014-cü ildə kənd təsərrüfatı məhsulları istehsalında xeyli irəliləyişlər əldə edilmişdir. Belə ki, ayrı-ayrı kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında mühüm nailiyyətlər qazanılmış, taxıl, kartof, bostan məhsulları, habelə meyvə istehsalı sahəsində yüksək göstəricilər əldə edilmişdir (Cədvəl 1).

Cədvəl 1

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı (min ton)

| Göstəricilər | 1995 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 1995-ci ilə nisbətən 2014-cü ildə %-lə |
|---|---|---|---|---|---|---|---|---|
| Dənli və dənli paxlalılar (ilkin çəkidə) | 921.4 | 2126,7 | 2000.5 | 2458.4 | 2802.2 | 2955.3 | 2383.3 | 258.7 |
| Tütün | 11.7 | 7,1 | 3.2 | 3.6 | 4.3 | 3.5 | 2.9 | 24.8 |
| Şəkər çuğunduru | 28.1 | 36,6 | 251.9 | 252.9 | 173.8 | 187.9 | 173.3 | 616.7 |
| Kartof | 155.5 | 1083.1 | 953.7 | 938.5 | 968.5 | 992.7 | 819.3 | 526.9 |
| Tərəvəz | 424.1 | 1127,3 | 1 189.5 | 1214.8 | 1216.2 | 1236.3 | 1187.7 | 280.1 |
| Bostan | 41.9 | 363,8 | 433.6 | 478 | 428 | 429.7 | 440.9 | 1052.3 |
| Meyvə və giləm. | 324.4 | 625.7 | 729.5 | 765.8 | 810 | 853.7 | 850.8 | 262.3 |
| Üzüm | 308.7 | 79.7 | 129.5 | 137 | 151 | 154 | 147.7 | 47.8 |
| Çay | 9.4 | 0,73 | 0.54 | 0. 53 | 0.57 | 0.57 | 0.47 | 5.0 |
| Pambıq | 274.1 | 196.6 | 38.2 | 66.4 | 57 | 45.2 | 41.0 | 15.0 |
| Ət (kəsilmiş çəkidə) | 109.4 | 198.0 | 244.9 | 254.9 | 276.0 | 286.9 | 291.2 | 266.2 |
| Süd | 826.5 | 1251,9 | 1536,2 | 1622,3 | 1719,6 | 1820,5 | 1855.8 | 224.5 |
| Yumurta (milyon ədəd) | 455.8 | 874,6 | 1178,6 | 1011,0 | 1226,7 | 1401,5 | 1562.7 | 342.8 |
| Yun | 9 | 13,1 | 15,6 | 16,0 | 16,2 | 16,5 | 16.8 | 186.7 |
| Bal | 0.3 | 0.6 | 1.9 | 2.3 | 2.4 | 2.5 | 2.4 | 800 |

Mənbə: DSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

1995-ci illə müqayisədə 2014-cü ildə taxıl istehsalı 2.6 dəfə, kartof istehsalı 5.3 dəfə, tərəvəz istehsalı 2.8 dəfə, bostan məhsulları istehsalı 10

dəfə, meyvə və giləmeyvə istehsalı 2.6 dəfə, şəkər çuğunduru 6.2 dəfə, ət istehsalı 2.7 dəfə, süd istehsalı 2.3 dəfə, yumurta istehsalı 3.4 dəfə, yun istehsalı 1.9 dəfə və bal istehsalı 8 dəfə artmışdır. 2013-cü illə müqayisədə isə ölkə quraqlığa görə, 2014-cü ildə bitkiçilik məhsullarının istehsalında cüzi azalma olmuşdur. Amma 2015-ci ildə yenidən kənd təsərrüfatı məhsulları istehsalının həcmində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artıma nail olunmuşdur. 2015-ci ildə qarğıdalı da daxil olmaqla 2999,0 min ton taxıl, 839,8 min ton kartof, 1273,3 min ton tərəvəz, 35,0 min ton pambıq, 886,3 min ton meyvə və giləmeyvə, 484,5 min ton bostan məhsulları, 157,0 min ton üzüm, 186,1 min ton şəkər çuğunduru, 18,9 min ton dən üçün günəbaxan, 3,5 min ton tütün, 578,9 ton yaşıl çay yarpağı toplanmış, diri çəkidə 515,6 min ton ət, 1924,4 min ton süd, 1538,6 milyon ədəd yumurta və 17,0 min ton yun istehsal olunmuşdur. Lakin bu artıma baxmayaraq hələ də respublikamızda əsas kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı aşağıdır və bu istiqamətdə tədbirlər həyata keçirilməlidir. Heyvandarlıqda isə son illərdə sürünün cins tərkibinin yaxşılaşdırılması istiqamətində görülmüş işlər mal-qaranın sayının və heyvandarlıq məhsullarının artmasına öz müsbət təsirini göstərmişdir.

Ümumilikdə isə ərzaq məhsulları istehsalında baş verən bu artım ölkənin ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsinin də yüksəlməsini şərtləndirmişdir. Belə ki, 2015-ci ilin yanvar ayına olan məlumata görə, əhalinin ərzaq məhsullarına olan tələbatı taxıl üzrə 6o,6%, mal əti və ət məhsulları üzrə 87,7%, qoyun (keçi) əti və ət məhsulları üzrə 97,9, quş əti üzrə 98,0%, yumurta üzrə 96 %, kartof üzrə 89,7 %, meyvə və giləmeyvə üzrə 120%, üzüm üzrə 94%, tərəvəz üzrə 103,4%, bostan məhsulları üzrə 100,4%, süd və süd məhsulları üzrə 76,3%, bitki yağı üzrə 70%, kərə yağı üzrə 50% ödənilir.

Qarşıdakı illərdə xüsusən intensiv metodların tətbiqi sayəsində ərzaq mənşəli bitkiçilik məhsullarının istehsalının artırılması və idxaldan asılılıq səviyyəsinin maksimum azaldıması vacibdir. Bunun üçün də xarici investorların kənd təsərrüfatına cəlb edilməsi zəruridir. Eyni zamanda bu məqsədə nail olmaq üçün ölkəmizin potensial sahələri araşdırılmalı və əlverişli investisiya mühiti daha da təkmilləşdirilməlidir.

2014-cü ildə kənd təsərrüfatının ÜDM-də payı 5,3%, kənd təsərrüfatında məşğul əhali 36,7%, kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 5225.8 milyon manat təşkil etmişdir. 2014-cü ildə kənd təsərrüfatı və onun məhsullarını emal edən sahələrin qeyri-neft məhsullarının ixracında xüsusi çəkisi 50.9 faiz olmuşdur. Əsas kapitala

yönəldilmiş ümumi vəsaitin 363,9 milyon manatı və ya 2.1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığa sərf edilmişdir.

2-ci cədvəldən göründüyü kimi, qeyri-neft sektorunun sahələri arasında kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, tikinti, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə üzrə investisiyalar yüksək sürətlə artmışdır. Belə ki, 2005-ci illə müqayisədə 2014-cü ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 0,7 faizdən 2.1 faizə, tikintidə 0,8 faizdən 12,6 faizə, nəqliyyat və anbar təsərrüfatında 9,0 faizdən 13.9 faizə qalxmış, informasiya və rabitə üzrə isə 2,7 faizdən 0,9 faizə enmişdir. İllər üzrə qeyri-neft sektorunun sahələri arasında kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, tikinti, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə üzrə investisiyaların yüksək sürətlə artmasına baxmayaraq hələ də təəssüf ki, sənaye sahələri, digər sahələr, tikinti, nəqliyyat və anbar təsərrüfatı daha çox üstünlük təşkil edir. Bunu aşağıdakı şəkildən də görmək olar.

Cədvəl 2

İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiya

| İqtisadi fəaliyyət sahələri | 2005 | | 2010 | | 2011 | | 2012 | | 2013 | | 2014 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | mln. ma | faizlə | mln. man | faizlə | mln. man | faizlə | mln. man | faizlə | mln. man | faizlə | mln man | faizlə |
| Sənaye | 4176.0 | 72.4 | 4276.2 | 43.2 | 5369.8 | 41.9 | 6039.9 | 39.2 | 7499.6 | 42.0 | 7639,5 | 43.4 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 40.7 | 0.7 | 431.0 | 4.4 | 437.3 | 3.4 | 648.8 | 4.2 | 574.3 | 3.2 | 363,9 | 2.1 |
| Tikinti | 46.1 | 0.8 | 113.8 | 1.2 | 225.9 | 1.8 | 499.0 | 3.2 | 707.8 | 4.0 | 221,7 | 12.6 |
| Nəqliyyat və anbar təsərrüfatı | 517.2 | 9.0 | 2449.1 | 24.7 | 2515.7 | 19.7 | 2621.1 | 17.0 | 3570.0 | 20.0 | 2440,6 | 13.9 |
| İnformasiya və rabitə | 158.0 | 2.7 | 212.0 | 2.1 | 310.8 | 2.4 | 329.5 | 2.1 | 200.7 | 1.1 | 157,5 | 0.9 |
| Digər sahələr | 831.9 | 14.4 | 2423.6 | 24.4 | 3939.6 | 30.8 | 5269.0 | 34.3 | 5298.4 | 29.7 | 4795,4 | 27.1 |

Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.




Şəkil 1 . 2014-cü ildə iqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiya (faizlə)

Dünya təcrübəsi göstərir ki, yalnız iqtisadi istehsalın inkişafına yönəldilmiş birtərəfli tədbirlər arzu olunan nəticənin əldə olunmasına gətirib çıxarmır. İnkişaf etmiş ölkələr sənayedə, kənd təsərrüfatında və tikintidə inkişafa nail olaraq, xidmətlər bazarının genişlənməsinə, investisiya qoyuluşlarının artırılmasına və rəqabətin inkişafına müvəffəq olmuşlar.

Məhz Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: "Ölkəmizdə investisiya iqlimi çox müsbətdir. Birbaşa xarici sərmayələrin qoyuluşuna görə Azərbaycan MDB məkanında liderlik rolunu saxlayır. Bugünkü Azərbaycan artıq dünya miqyasında biznes aparmaq üçün çox gözəl ölkə kimi tanınır. Təsadüfi deyil ki, aparıcı maliyyə qurumlarının reytinqlərində Azərbaycanda iqtisadi islahatlarla bağlı çox müsbət rəy vardır" deyərək vurğulamışdır ki, "Biz çalışmalıyıq ki, xarici investisiyaları ölkəmizin inkişafı üçün lazım olan, prioritet təşkil edən sektorlara cəlb edək. Bizdə xarici investisiyalar daha çox neft-qaz sektoruna qoyulur. Ancaq biz çalışmalıyıq ki, xarici investisiyaları sənayeyə, kənd təsərrüfatına, turizm, xidmət, İKT sektorlarına da cəlb edək". Həmçinin, ölkə iqtisadiyyatına investisiyaların cəlb olunması məqsədilə hökumət tərəfindən "açıq qapı" siyasəti həyata keçirilir. Həyata keçirilən tədbirlər nəticəsində son illərdə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda əsas kapitala yönəldilmiş vəsaitin həcmi artmışdır.

Cədvəl 3

Kənd təsərrüfatının ümumi məhsulunda sahəyə yönəldilmiş investisiyaların xüsusi çəkisinin dəyişmə meyli (%-lə)

| İllər | Kənd təsərrüfatının ümumi məhsulu (mln. man.) | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda əsas kapitala yönəldilmiş investisiya (mln. man.) | Kənd təsərrüfatına yönəldilən investisiyaların sahənin ümumi məhsulunda xüsusi çəkisi (%-lə) |
|---|---|---|---|
| 1995 | 726.8 | 4.4 | 0,6 |
| 2000 | 1112.4 | 6,5 | 0,6 |
| 2005 | 1844.8 | 40.7 | 2,2 |
| 2010 | 3877.7 | 431 | 11.1 |
| 2013 | 5244.6 | 574.3 | 10.9 |
| 2014 | 5225.8 | 363.9 | 7.0 |

Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Əsas kapitala yönəldilmiş vəsaiti əsas etibarilə daxili investisiyalar təşkil etmişdir. 2014-cü ildə əsas kapitala yönəldilmiş daxili vəsaitlərin 2,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın payına düşmüşdür. Burada təəssüfləndirici hal ondan ibarətdir ki, kənd təsərrüfatı məhsullarının istehsalına və emalına xarici investorlar maraq göstərmirlər. Rəsmi statistik məlumatlara görə 2013 və 2014-cü illərdə qida məhsullarının, içki və tütün məmulatlarının istehsalına xarici investisiya yönəldilməmişdir. Bu sahəyə yönəldilən daxili investisiyaların artırılması ilə yanaşı xarici investisiyaların cəlbi də zəruridir.

Qarşıdakı illərdə isə xarici investorlar Azərbaycanda bitkiçilik və heyvandarlıqda aşağıdakı potensial sahələrə investisiya qoya bilərlər:

| **Bitkiçilik** | **Heyvandarlıq** |
|---|---|
| ▪ pambıqçılıq;<br>▪ üzümçülük, meyvəçilik;<br>▪ tütünçülük;<br>▪ şəkər çuğunduru;<br>▪ toxumçuluq, tingçilik təsərrüfatlarının yaradılması;<br>▪ tərəvəzçilik və bostançılıq;<br>▪ çayçılıq;<br>▪ yağlı bitkilər, zeytunçuluq, günəbaxan;<br>▪ orqanik məhsullarının istehsalı;<br>▪ intensiv bağçılıq təsərrüfatlarının yaradılması. | ▪ cins heyvanların yetişdirilməsi üzrə təsərrüfatlar;<br>▪ quşçuluq, damazlıq quşçuluq;<br>▪ arıçılıq;<br>▪ balıqçılıq;<br>▪ damazlıq və südlük istiqamətli iribuynuzlu heyvandarlıq təsərrüfatlarının yaradılması. |

Burada onu da qeyd etmək lazımdır ki, təzə meyvə və giləmeyvə, fındıq, albalı, alma, kartof, xiyar pomidor yüksək aşkar müqayisəli üstünlük göstəricilərinə malikdir.

Həmçinin xarici investisiyaları cəlb etməklə respublikada yeni innovasiya texnologiyalarına əsaslanan aqroparkların yaradılması da vacibdir. İstehsal yönümlü aqroparkların əsas fəaliyyəti kənd təsərrüfatı məhsul-

larının istehsalıdır. Gəncə-Qazax iqtisadi rayonunda açıq və örtülü sahədə tərəvəzcilik və üzümçülük, Quba-Xaçmaz iqtisadi rayonunda bağçılıq üzrə ixtisaslaşmış aqroparkların yaradılması üçün potensial imkanlar mövcuddur. Aqroparkların yaradılması və inkişafı respublikada məhsuldarlığın əhəmiyyətli dərəcədə artırılmasına və əhalinin yerli məhsullarla etibarlı təminatına şərait yaradacaqdır.

Məlum olduğu kimi, dünyanın digər ölkələrində olduğu kimi Azərbaycanda da kənd təsərrüfatının inkişafı investisiya qoyuluşlarının stimullaşdırılmasından əhəmiyyətli dərəcədə asılıdır. Odur ki, dövlət tərəfindən milli iqtisadiyyatın strateji əhəmiyyətli sahəsi olan kənd təsərrüfatına investisiya qoyuluşları dəstəklənməlidir. Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatında investisiya fəaliyyətinin aktivləşdirilməsi prosesində təsərrüfat subyektlərinin sərbəst seçim imkanlarının müəyyənləşdirilməsi, amortizasiya ayırmalarının sürətləndirilməsi ilə bağlı təsərrüfat subyektlərinin müstəqil seçim etmələri mühüm əhəmiyyət kəsb edir.

Məhz bu inkişafın nəticəsində 2005-ci ildə ölkə iqtisadiyyatına qoyulmuş investisiyaların ümumi həcminin yalnız 31 faizi daxili mənbələrdən maliyyələşirdisə, 2014-cü ildə daxili investisiyaların xüsusi çəkisi 58 faizə çatmışdır (cədvəl 4).

Cədvəl 4

Ölkə iqtisadiyyatına yönəldilmiş investisiyalar

| | 1995 | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|
| **Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla):** | | | | | | | | |
| mlyn.manat | 480.7 | 1,289.8 | 6 733.4 | 14,118.9 | 17,048.8 | 20,251.1 | 21,448.2 | 21,890.6 |
| mlyn.dollar | 544.1 | 1,441.40 | 7 118.5 | 17,591.4 | 21,588.9 | 25,777.8 | 27,340.0 | 27,907.5 |
| **Xarici investisiyalar:** | | | | | | | | |
| mlyn.manat | 331.4 | 829.5 | 4 628.5 | 6 619.7 | 6,849.8 | 8,102.7 | 8,269.3 | 9,175.7 |
| mlyn.dollar | 375.1 | 927.0 | 4 893.2 | 8 247.8 | 8,673.9 | 10,314.0 | 10,540.9 | 11,697.7 |
| **Daxili investisiyalar:** | | | | | | | | |
| mlyn.manat | 149.3 | 460.3 | 2 104.9 | 7,499.2 | 10,199.0 | 12,148.4 | 13,178.9 | 12,715.0 |
| mlyn.dollar | 169.0 | 514.40 | 2 225.3 | 9,343.6 | 12,915.0 | 15,463.8 | 16,799.1 | 16,209.8 |

Cədvəl DSK məlumatları əsasında hazırlanmışdır.

Ümumilikdə, 2000-ci illə müqayisədə 2014-cü ildə daxili investisiyalar 27 dəfədən çox artmışdır. Bu inkişafa paralel olaraq, kənd təsərrüfatına qoyulan investisiyalar da artmışdır. Qeyd edək ki, Azərbaycanın dayanıqlı və tarazlı inkişafının təmin olunmasında iqtisadiyyata, xüsusən də

kənd təsərrüfatına investisiyaların cəlb edilməsi xüsusi rol oynayır. Hazırda investisiyaların tələb olunan həcmi və keyfiyyətinin təmin edilməsi məqsədilə investisiya mühitinin təkmilləşdirilməsi respublikamızın qarşısında duran əsas vəzifələrdəndir.

Nəzərə almaq lazımdır ki, aqrar sahəyə xarici investisiyaların cəlb edilməsi həm də “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında qarşıya qoyulan 2020-ci ilə kimi ÜDM-də qeyri-neft sektorunun payının orta illik real artım sürətinin məqsədlərə nail olunmasında mühüm əhəmiyyəti vardır. Bu konsepsiya qeyri-neft sektorunda ixracın artırılmasını da hədəfləyir və burada kənd təsərrüfatı  mühüm rol oynaya bilər. Belə ki, kənd təsərrüfatı və onun məhsullarını emal edən sahələrin qeyri-neft məhsullarının ixracında xüsusi çəkisi 50 faizdən çoxdur. 2015-ci ildə təkcə meyvə-tərəvəz məhsullarının ixracından respublikaya 312 milyon ABŞ dolları vəsait daxil olmuşdur. Bu da 2014-cü illə müqayisədə 7,2 faiz çoxdur.

Ölkəmizdə aqrar sahənin inkişafı üçün böyük imkanlar mövcud olsa da, dövlət əsaslı vəsait qoyuluşunun bu sahədəki payı digər sahələrlə müqayisədə çox aşağıdır. Amma son 10 ildə kənd təsərrüfatına Sahibkarlığa Kömək Milli Fondu (SKMF) vasitəsilə kənd təsərrüfatı məhsullarının emalı və istehsalına diqqət artmışdır. Buna misal olaraq bu layihələr çərçivəsində görülən işlər nəticəsində son illərdə əsas ərzaq məhsullarından biri olan quş əti istehsalında artımı göstərə bilərik. Qeyd edək ki, quş əti istehsalında artıma səbəb Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə ümumi dəyəri 126.9 mln. manat, illik istehsal gücü 42.9 min ton quş əti, 69 mln. ədəd damazlıq yumurta və 154.9 mln. ədəd əmtəəlik yumurta olan 35 damazlıq yumurta və broyler təsərrüfatına 67.3 mln. manat güzəştli kreditlərin verilməsi olmuşdur. Bu vəsait hesabına illik istehsal gücü 27.3 min ton quş əti, 51.6 mln. ədəd damazlıq və 144.9 mln. ədəd əmtəəlik yumurta olan 23 quşçuluq təsərrüfatı istifadəyə verilmiş, illik istehsal gücü 15.6 min ton quş əti, 17.4 mln. ədəd damazlıq və 10 mln. ədəd əmtəəlik yumurta olan 12 təsərrüfat üzrə isə tikinti işləri davam etdirilir .

Kənd təsərrüfatına qoyulan investisiyaların artması respublikamızın ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayacaqdır. Etiraf etmək lazımdır ki, müstəqillik illərində kənd təsərrüfatının inkişafına yönəldilmiş investisiya qoyuluşlarının həcmi istənilən səviyyədə artmamışdır və bu, sahənin maddi-texniki bazasının köhnəlməsinə səbəb olmuşdur. Doğrudur, son illərdə "Aqrolizinq" ASC vasitəsilə bu sahədəki problemlərin həllinə nail olunmağa çalışılmışdır. 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan xaricdən damazlıq heyvanların idxalı

və heyvandarlıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faiz güzəştlə lizinq yolu ilə satılması üçün “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə 13,5 milyon manat, kənd təsərrüfatı məhsulları istehsalçılarının taxılyığan kombaynlara əlavə ehtiyacını təmin etmək məqsədi ilə 15 milyon manat, habelə Süni Mayalama Mərkəzinin müasir tələblərə uyğun olaraq yenidən qurulması və bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsi üçün Kənd Təsərrüfatı Nazirliyinə 1,5 milyon manat ayrılmışdır. Şübhəsiz ki, aqrar sahənin inkişaf etdirilməsi məqsədilə həyata keçirilən investisiya qoyuluşlarının dövlət tərəfindən dəstəklənməsi, kəndli təsərrüfatlarına təşkilati-texniki yardımın göstərilməsinin davam etdirilməsi mühüm əhəmiyyət daşıyır.

Aparılan təhlil göstərir ki, kənd təsərrüfatına qoyulan investisiyaların həcminin cüzi olmasını və onların sahənin tələbatını ödəməməsini şərtləndirən amillər aşağıdakılardan ibarətdir:

- kənd təsərrüfatı sahələrinin böyük əksəriyyətinin zərərlə işləmələri və bu səbəbdən də xarici investisiyaların sahəyə zəif axını;
- dövlət büdcəsindən ayrılan vəsait məbləğinin xeyli az olması;
- aqrar bölmənin istehsalçılarının maliyyə vəziyyətlərinin yaxşılaşdırılmasına imkan verə biləcək zəruri tənzimləmə tədbirlərinin (aqrar-sənaye kompleksində qiymət paritetinin gözlənilməsi, təminatlı qiymətlərlə kənd təsərrüfatı məhsullarının alışının satın alınmasının təşkili, aqrar-sənaye kompleksində emal müəssisələrinin inhisarçı mövqelərinin bitərəfləşdirilməsi və s.) istisnalıq təşkil etməsi;
- məhsul istehsalçılarına yüksək səviyyədə xidmət göstərən çevik bank sisteminin olmaması və s.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı sahəsinin kreditləşdirilməsinin müntəzəm olaraq inkişaf etdirilməsinə baxmayaraq bu sahədə kreditlərlə bağlı problemlər tam həllini tapmamışdır. Hələ də kreditləşmənin həcmi artan tələblə müqayisədə aşağı olaraq qalır. Həmçinin maliyyə resurslarının çeşidi sadə işçi kapitalı və investisiya kreditləri ilə məhdudlaşır və aqrobiznesin xüsusi ehtiyacları üçün yeni mexanizmlərin tətbiq edilməsi tələb olunur. Xüsusən də kənd təsərrüfatının bank sektoru tərəfindən nisbətən riskli sektor kimi qəbul olunması bu sahənin inkişafına mənfi təsir göstərir.

Bütün bunlarla yanaşı, aqrar sektorun inkişafının və aqrar modernləşdirmənin dövlət tərəfindən maliyyələşdirilməsi qaydaları və mexanizmləri inkişaf etdirilməlidir. Qarşıdakı dövrlərdə dövlət büdcəsindən qaytarılmayan ödənişlərlə yanaşı qaytarılmaq prinsipi ilə maliyyələşdirmənin genişləndirilməsi büdcə vəsaitlərinin daha səmərəli istifadəsinə yol açmış

olacaqdır. Bu yönümdə də aqrar modernləşdirmənin prioritetliyinin reallaşdırılmasını təmin etmək üçün kənd təsərrüfatında müasir texniki və texnoloji vasitələrin tətbiqi ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə ayrılan büdcə vəsaitlərinin istifadəsi və qaytarılmasının daha əlverişli şərtlərinin müəyyən edilməsi məqsədəuyğundur .

Dissertasiya işinin "**Kənd təsərrüfatında investisiya qoyuluşunun iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri**" adlanan üçüncü fəslində kənd təsərrüfatında investisiya layihələrinin maliyyələşdirilməsi mexanizmi və kənd təsərrüfatına investisiya qoyuluşlarının prioritet istiqamətləri verilmişdir.

Məlum olduğu kimi, kənd təsərrüfatı iqtisadiyyatın digər sahələrindən həm də investisiya cəlbediciliyinin aşağı olmasına görə fərqlənir. Kənd təsərrüfatının investisiya cəlbediciliyinin aşağı olması bu sahədə sürətli dövriyyə imkanlarını məhdudlaşdırır. Sahənin azgəlirliliyi də investisiya cəlbediciliyinin aşağı olmasına gətirib çıxarır. Bundan başqa kənd təsərrüfatının təbii amillərdən asılılığı investisiya risklərindən sığortalanma imkanlarını məhdudlaşdırır ki, bu da qoyulan vəsaitin itkilərə məruz qalmasına gətirib çıxaran meyil kimi qiymətləndirilir.

Azərbaycan iqtisadiyyatı üçün kənd təsərrüfatının inkişafı prioritet sahədir. Ölkənin kənd təsərrüfatına sərmayə qoyuluşu artarsa bu sahə yüksək keyfiyyətli qida məhsullarının ixracatçısına çevrilə bilər. Həmçinin, ərzaq təhlükəsizliyi baxımından da kənd təsərrüfatı xüsusi əhəmiyyət kəsb edən sahədir. Burada onu da nəzərə almaq lazımdır ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi Azərbaycan Respublikasının yeni inkişaf mərhələsinin əsas prioritetləri siyahısındadır. Son vaxtlarda dünya əhalisinin ərzaqla təminatında yaranan çətinliklər qloballaşma şəraitində ərzaq təhlükəsizliyi məsələlərini aktual mövzuya çevirmiş və dünyada bu sahəyə diqqət artmışdır. Çünki ərzaq təhlükəsizliyi dövlətin milli təhlükəsizlik sisteminin bir hissəsi kimi çıxış edir. Azərbaycan Respublikasında əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" çərçivəsində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində son illərdə yerli istehsal hesabına əsas növ ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi xeyli yüksəlmiş və hətta bir sıra məhsullar üzrə tam təminata keçilmişdir və ölkədə yoxsulluq səviyyəsi ciddi çəkildə azalmışdır. Eyni zamanda son illərdə görülmüş tədbirlər nəticəsində kənd təsərrüfatında məhsul istehsalının həcmi əhəmiyyətli dərəcədə artmışdır.

Azərbaycan Respublikasında da kənd təsərrüfatının investisiya cəlbediciliyinin artırılması aqrar sahədə dövlət siyasətinin mühüm istiqamətlərindən biri olaraq qalır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 16 mart 2016-cı il tarixli “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında sərəncamında Azərbaycan iqtisadiyyatının mühüm bir hissəsini təşkil edən 8 prioritet sektordan biri kimi kənd təsərrüfatının seçilməsi də bunun göstəricisidir.

Son illərdə kənd təsərrüfatına hərtərəfli dövlət köməyi istehsalın artım sürətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsinə yönəldilmişdir. Nəticədə sahənin inkişafına yönəldilən investisiyaların həcmi sürətlə artmışdır. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə əsas kapitala yönəldilmiş investisiyaların orta illik həcmi 2010-2012-ci illərdə 2000-2002-ci illərin müvafiq göstəricisi ilə müqayisədə 45 dəfədən çox artmışdır. Kənd təsərrüfatına yatırılan sərmayələrin qeyri-neft sektoru üzrə əsas vəsaitlərə yönəldilən sərmayələrdə payı əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Dövlətin aqrar investisiya siyasəti bütövlükdə investisiya siyasətinin mühüm tərkib hissəsi olmaqla daxili və xarici bazarlarda yerli təsərrüfat subyektləri maraqlarının qorunmasına yönəldilir. Dövlətin investisiya siyasəti iqtisadiyyatın dövlət tənzimlənməsinin ən mühüm tərkib hissəsi hesab edilir. Lakin bütün bunlara baxmayaraq belə ümumi yanaşma nə formalaşmaqda olan milli iqtisadiyyatda bərqərar olan bazar münasibətlərinin spesifikliyini, nə də investisiyanın dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasındakı rolunu əks etdirmir. Əsas fondlara investisiyanın əhəmiyyəti ölkənin milli təhlükəsizliyinin təmin edilməsində xüsusi rola malikdir.

Kənd təsərrüfatında investisiya fəallığını yüksəltmək üçün burada həyata keçirilən qiymət siyasətinə yenidən baxılmalı, kənd təsərrüfatı ilə digər sahələr arasında ekvivalent mübadilə təmin olunmalı, kənd təsərrüfatına investisiya axını stimullaşdırılmalıdır.

Yekun olaraq qeyd edə bilərik ki, Azərbaycanda kənd təsərrüfatının inkişafı və fermerlər üçün bir sıra güzəştlər müəyyən edilmişdir. Həmçinin “Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin sərəncamı məhsulun istehsalçıdan istehlakçıya çatdırılması mərhələsində maneələrin aradan qaldırılması, ərzaq bazarında süni qiymət artımının qarşısının alınması, kənd təsərrüfatı və ərzaq məhsullarının qəbulu üzrə ixtisaslaşmış terminalların və onların saxlanması üçün anbarların yaradılması, məhsulların daşınmasına xidmət edən nəqliyyat infrastrukturu-

nun təşkili, xüsusi ərzaq mağazaları şəbəkəsinin genişləndirilməsi istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsinə öz töhfəsini verəcəkdir.

Həmçinin "Azərbaycan Respublikasında aqrar-sənaye kompleksinin inkişafı strategiyası"nda da bunlar nəzərə alınacaqdır. Bu isə o deməkdir ki, qarşıdakı illərdə Azərbaycan Respublikasında investisiya mühitinin qorunub saxlanması, yerli və xarici investorların fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması, kənd təsərrüfatının investisiya cəlbediciliyinin artırılması və s. istiqamətində ardıcıl addımlar atılacaqdır. Bu isə 2020-ci ilədək pambıqçılığın gəlirli sahə olmasını, son illərdə respublikada bu sahəyə investorların cəlb edilməsini və sahibkarların marağını nəzərə alaraq onun əkin sahəsinin 50 min hektara, istehsalının 150 min tona, hər hektardan məhsuldarlığının 30,0 sentnerə, tütünün əkin sahəsinin 3 min hektara, istehsalının 9 min tona, hər hektardan məhsuldarlığının 30,0 sentnerə, şəkər çuğundurunun əkin sahəsinin 10 min hektara, istehsalının 400 min tona, günəbaxanın əkin sahəsinin 20 min hektara, istehsalının isə 50 min tona çatdırılması ilə bağlı verilən proqnozların özünü doğrultmasına səbəb olar. Eyni zamanda "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da qeyd edildiyi kimi, 2020-ci ilə qədər olan müddətdə ÜDM-də qeyri-neft sektorunun orta illik real artım sürətinin 7 faizdən yüksək olması və investisiyaların strukturunun təkmilləşdirilməsi prioritetlərdən olacaqdır. Şübhəsiz ki, "Azərbaycan Respublikasında aqrar-sənaye kompleksinin inkişafı strategiyası"nda da bunlar nəzərə alınacaqdır. Bu isə o deməkdir ki, Azərbaycan Respublikasında sosial-iqtisadi tədbirlərin davamlı surətdə həyata keçirilməsi, ölkədə investisiya mühitinin qorunub saxlanması, yerli və xarici investorların fəaliyyəti üçün daha əlbverişli şəraitin yaradılması və s. istiqamətində qarşıdakı illərdə də ardıcıl addımlar atılacaqdır.

Dissertasiya işinin sonunda tədqiqatın nəticələri ümumiləşdirilmiş, kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsinə istiqamətlənmiş təklif və tövsiyələr irəli sürülmüşdür.

Dissertasiya işinin əsas müddəaları və irəli sürülən təkliflər aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:

1. Aqrar sahəyə qoyulan investisiyaların prioritetliyinin təmin edilməsi məsələləri // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. №2. 2013. səh.71-77.

2. Kənd təsərrüfatının dayanıqlı inkişafında investisiya qoyuluşunun rolu // Azərbaycan Aqrar elmi №3 (230) 2014. səh. 139-143.

3. Kənd təsərrüfatına daxili və xarici investisiyaların cəlb edilməsi zərurəti // "Kooperasiya" elmi praktik jurnal №2(33) 2014. səh.90-95.

4. Azərbaycanda kənd təsərrüfatına xarici investisiyanın cəlb olunması üçün potensial sahələr // Azərbaycan Aqrar elmi №1 (232) 2014. səh 184-187.

5. Инвестиционный климат Азербайджанской Республики как ключовой фактор развитя сельського хозяйства// "Ekonomika APK" International scitific and production journal. 12.2014. Kiev, Ukraina

6. Kənd təsərrüfatına investisiya qoyuluşunun artırılması aqrar inkişaf strategiyasının reallaşmasının şərti kimi// Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun 50 illik yubleyinə həsr olunmuş "Aqrar iqtisadiyaytın aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2012, səh.48.



## РЕЗЮМЕ

**Турал Тофиг оглы Абдулгасанов**

**Направления увеличения инвестиционной привлекательности сельского хозяйства**

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы диссертации, характеризуется степень изученности проблемы, ставятся цель и задачи, раскрывается научная новизна исследования, обосновывается практическая значимость работы, а также даны сведения об апробации результатов исследований и их внедрении.

Первая глава диссертации называется «Теоретической и методологической основой инвестиций в сельское хозяйство». В этом разделе рассмотрены теоретические основы инвестиций в сельскохозяйственное производство, исследуется опыт разитых стран мира для инвестиций в сельском хозяйстве.

Во второй главе диссертации под названием «Анализ и оценка текущего состояния инвестиционной деятельности в сельском хозяйстве» проанализированы современное состояние и динамика

производство в сельском хозяйстве, оценка факторы влияющие на инвестиционную привлекательность сельского хозяйства.

В третьей главе диссертационной работы- «Направления повышения экономической эффективности инвестиций в сельское хозяйство» рассматриваются вопросы приоритетные направления инвестиций в сельское хозяйство. Кроме того, в этой главе приведены механизм финансирования инвестиционных проектов в сельском хозяйстве.

В конце диссертационной работы разработаны научно обоснованные предложения по исследуемой проблеме.



## SUMMARY

**Tural Tofig Abdulhasanov**

**Directions of increasement of investment attractiveness of agriculture**

The dissertation consists of introduction, three chapters, conslusion and list of used literature.

In introduction urgency of assigned problem is substantiated, objectives, goals, theoretical and methodological basis of research are defined, scientific newness and practical significance of thesis are disclosed.

In the introductory part of the thesis actualite of topic described, objective and tasks of research its theoretical scientific base and methodological importance and e.t.c.

In the first chapter entitled “The theoretical and methodological basis of the investment in agriculture". The theoretical bases of investments in agricultural is researched  has been the experience of the world to investment in agriculture.

In the second chapter entitled “The analysis and evaluation of current situation of investment performance in agriculture” the current status of jnvestment in agriculture are analysis and the factors influencing the investment attractiveness of agriculture has been evaluated .

In the third chapter entitled “The directions to increase economic efficiency of investment in agriculture” are researched priority areas for investment in agriculture. Also in this chapter a mechanism for financing investment projects in agriculture are given.

The final part of the thesis summarizes the results and suggestions, which have theoretical and practical importance.



Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 26, tiraj 100

**Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi**

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

-------------------------------------------------------------------------

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

=============================================

*На правах рукописи*

**Абдулгасанов Турал Тофиг оглы**

# Направления увеличения инвестиционной привлекательности сельского хозяйства

**5312.01- «Отраслевая экономика»**

## АВТОРЕФЕРАТ

диссертации на соискание научной степени
доктора философии по экономики

**Гянджа– 2016**